# Müzəffər hərbi güc



**Bu gün Azərbaycan Ordusunun yaradılmasının 103-cü ili tamam olur. Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci ildə imzaladığı müvafiq fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun təşkil olunduğu gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi qeyd edilir.**
**Milli Məclisin komitə sədrləri və deputatlar ordumuzla bağlı fikirlərini qəzetimizlə bölüşdülər.**

## Yaranma tarixini ilk dəfə qalib kimi qeyd edən Azərbaycan Ordusu

***Hicran HÜSEYNOVA,***
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor:*

- Azərbaycan Ordusu ilk dəfə öz yaranma tarixini qalib formada qeyd edir. 103 illik tarixində çox çətin və şərəfli bir inkişaf yolu keçən ordumuz öz Şanlı Qələbəsi ilə nəinki ölkəmizin, eləcə də, dünyanın hərb tarixində xüsusi yer tutur. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla bütün zabit və əsgər heyətini bu gün münasibətilə təbrik edərək Azərbaycan dövlətçiliyinin inkişafına, müdafiəsinə yönəlmiş müqəddəs fəaliyyətlərində onlara sonsuz uğurlar arzulayıram. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan hər zaman özünün görkəmli sərkərdələri, hərbi xadimləri ilə tanınmışdır. Xalqımız onlarla fəxr edə bilər. 1918-ci il iyun ayının 26-da Milli Ordunun yaradılması hələ ötən əsrin əvvəllərində əldə olunan müstəqilliyimizin bəhrəsi idi. Azərbaycanın ordu quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər böyük tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sovet hakimiyyəti dövründə azərbaycanlı gənclər hərbi xidmətə çağrılsalar da, onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Əlbəttə ki, burada əsas məqsədi azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə maneə olmaq idi. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Heydər Əliyev XX əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbuluna nail olmuşdu.

1991-ci ildə yenidən müstəqilliyimiz bərpa olunsa da, ölkə daxilində hakimiyyətsizlik, xaos, siyasi çəkişmələr, ordunun iflic vəziyyətində olması, ərazilərin işğalı, ölkənin parçalanması və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkədə həyatın bütün sahələrində islahatlar aparılmağa başlanıldı, vəziyyət getdikcə stabilləşməyə başladı. O, ölkə rəhbərliyinə yenidən qayıdışından sonra Silahlı Qüvvələr quruculuğu istiqamətində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır. Ali Baş Komandan, Prezident cənab İlham Əliyev bu siyasəti daha da gücləndirərək qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlamaq üçün əsaslı bir təminat oldu. Ötən müddət ərzində büdcə xərclərinin böyük bir hissəsi hərbi xərclərə yönəldilmişdir. Azərbaycan bir çox ölkələrdən hərbi silah və sursatlar, hərbi-texniki maşınlar almışdı. Lakin biz təkcə bu silahları ixrac etmədik, eyni zamanda özümüz də istehsal etməyə başladıq. Dövlət başçısının sərəncamı ilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyinin yaranması da strateji əhəmiyyət daşıyırdı. Ölkəmizdə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və əldə olunan nailiyyətlər dünya miqyasında da qəbul edilir. Bu günlərdə imzalanmış Şuşa Bəyannaməsindən sonra hərbi sahədəki mövcud əməkdaşlıq daha da möhkəmlənəcəkdir. Bu isə dünyanın aparıcı dövlətlərinin Silahlı Qüvvələri ilə rəqabət aparmaq gücündə olan ordumuzun daha da güclənməsinə təkan verəcəkdir.

44 günlük Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin gücünü, hərbi qabiliyyətini, hazırlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Ordumuz XXI əsrin müharibəsini apardı. Artıq dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Rəşadətli ordumuz çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında elm, peşəkarlıq, hərbi məharət göstərərək, erməni işğalçılarını məhv edərək, torpaqlarımızı azadlığa çıxartdı.

Müharibə zamanı 5-ci nəsil müharibəsini aparan ordumuz tərəfindən hərbi əməliyyatlar zamanı silah və sursatların ehtiyaclılıq səviyyəsi bir daha təcrübədən keçirildi ki, bu da gələcəkdə hərbi xərclərin və hərbi təyinatlı məhsulların istehsalında daha düzgün və real qərarların qəbul edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bu məsələyə xüsusi münasibət bildirən cənab İlham Əliyev qeyd edir ki, “Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir”.

Ancaq bununla yanaşı, bu müharibənin qalibi var. O da torpaqlarımızı işğalçılardan azad edən, sərhədlərimizi qoruyan, hər bir vətəndaşımızın əmin-amanlığının, sakit həyatının keşiyində dayanan bizim mərd, cəsarətli əsgərlər və zabitlərimizdir. Onlar bu Vətən üçün, üçrəngli bayrağımız üçün canlarını, sağlamlıqlarını fəda edirlər. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman hərbçilərin, müharibə veteranlarının və qazilərinin, eyni zamanda, şəhid ailələrinin rifahı və sosial müdafiəsi üçün bütün imkanları yaradırlar. “YAŞAT” Fondu, Heydər Əliyev Fondu və digər qeyri-hökumət təşkilatları da bu prosesdə fəal iştirak edirlər. Hər birimiz dərk edirik ki, biz Qarabağın azad edilməsinə, torpaqlarımızın erməni faşizmindən təmizlənməsinə və ərazi bütövlüyümüzün təmin olunmasına görə şəhidlərimizə, qazilərimizə, Azərbaycan əsgəri və zabitinə borcluyuq! Qalib xalqın vətəndaşı, qalib ordunun əsgəri olmaq böyük şərəf və məsuliyyətdir. Bir daha Ali Baş Komandan, Prezident cənab İlham Əliyev başda olmaqla, Azərbaycan xalqının qüdrətli ordusunun mərd zabit və əsgərlərini təbrik edirəm.

## Qüdrətli Azərbaycan dövlətinin şanlı və qalib ordusu

***Siyavuş NOVRUZOV:***
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Hər bir dövlətin gücünü müəyyən edən əsas amillərdən biri onun hərbi potensialı və müdafiə qabiliyyətidir. Silahlı Qüvvələrin gücü təkcə ölkənin hərbi qüdrəti demək deyil, bu, eyni zamanda, dövlətin beynəlxalq siyasət və təhlükəsizlik arenasında mövqeyinin qorunması baxımından əhəmiyyətli faktordur. Qürur hissi ilə qeyd edə bilərik ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan həm də güclü və rəşadətli orduya malikdir.

Təbii ki, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer alması təsadüfi deyil. Bunu təmin edən amil xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu nizami və güclü ordu quruculuğu siyasətinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Xüsusi qeyd etmək lazımdır ki, müstəqil ölkəmizin güclü - qüdrətli ordusunun memarı olan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ordu quruculuğu prosesinin dövrün çağırışlarına müvafiq olaraq ardıcıllıqla həyata keçirilməsi Azərbaycanın hərbi qüdrətinin artırılması işinə mühüm töhfələr vermişdir. Ulu Öndər tərəfindən hələ sovet dönəmində ordu quruculuğu istiqamətində bir sıra mühüm addımlar atılmışdı. Cəmşid Naxçıvanski adına hərbi məktəbin o dövrdə Bakıda açılması Heydər Əliyevin xidmətlərinin nəticəsi idi. Həmin məktəb peşəkar hərbçi-kadrların yetişməsi işinə müstəsna töhfələr verib və bu gün də müstəqil Azərbaycanın Ordusu üçün zabitlər hazırlayır.

Ümummilli Liderimizin siyasətini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanda ordu quruculuğu çərçivəsində hərbi məktəblərin fəaliyyətinə böyük önəm verir. Bu isə bəhs olunan sahədə tədris prosesinin sistemli şəkildə və ardıcıllıqla davam etdirilməsinə, nəticə etibarilə, kadr potensialının inkişafına, orduda peşəkarlığın daimi olaraq artırılmasına imkan yaradır. Bundan başqa, Azərbaycan zabitləri NATO standartlarına uyğun olaraq hərbi təlimlərdə iştirak edirlər. Hərbçilərimiz bir çox ölkələrdə təcrübələrini artırırlar, gənclərimiz ayrı-ayrı ölkələrə hərbi təhsil almağa göndərilirlər. Bütövlükdə, bu gün kadr potensialının inkişafı, orduda peşəkarlığın daimi olaraq yüksəldilməsi Silahlı Qüvvələrimizin gücünü artıran çox əhəmiyyətli amildir.

Ən mühüm məsələlərdən biri ölkəmizdə hərbi sənaye kompleksinin inkişafı istiqamətində sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsidir. Məlumdur ki, Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir ki, bu da beynəlxalq müstəvidə hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı xeyli artırır. Son illər ərzində ölkəmizdə 20-dən çox hərbi zavod yaradılıb və bu zavodlarda çoxsaylı hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda Azərbaycan artıq hərbi məhsullarını ixrac etməyə başlayıb. Ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir.

Beləliklə, görülən işlərin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ordumuz, həmçinin dünyanın ən güclü 50 ordusu sırasında yer alır.

İftixaredici haldır ki, Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərib. Ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu hərbi əməliyyatlar apararaq 44 gün ərzində Ermənistanın silahlı qüvvələrini darmadağın etdi. Düşmənin məğlub olaraq qarşımızda diz çökməsi və təslim olması xalqımızın tarixi zəfəridir. Bu, həm də müzəffər ordumuzun öz tarixi missiyasını uğurla yerinə yetirdiyini göstərir.

Digər tərəfdən, Vətən müharibəsi Azərbaycan Ordusunda sağlam mənəvi-psixoloji durumun, ruh yüksəkliyinin, özünəinam və güclü vətənpərvərlik hissinin hökm sürdüyünü təsdiqlədi. Eyni zamanda Azərbaycan xalqının öz qüdrətli dövlətinin ordusuna qətiyyətli və birmənalı dəstək verməsi şanlı tarixi qələbəmizin əldə olunmasında müstəsna rol oynadı. Böyük fəxrlə deyə bilərik ki, bu gün harada yaşamasından asılı olmayaraq, hər bir vətənpərvər azərbaycanlı özünü Ali Baş Komandanımızın əsgəri, Vətənin müdafiəçisi kimi görür, dövlətə və ordumuza prinsipial dəstək verir. Bütün bunlar isə haqq mübarizəsi aparan Azərbaycanın qüdrətini artırır.

Əminliklə söyləmək olar ki, qüdrətli Azərbaycanın qalib ordusu bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və yeni nailiyyətlərin, zəfərlərin altına imza atacaq!

Yaşasın qüdrətli Azərbaycan! Yaşasın şanlı Azərbaycan Ordusu! Yaşasın Müzəffər Ali Baş Komandanımız!

## Silahlı Qüvvələrimiz Azərbaycanın hərb tarixinə şanlı səhifə yazdı

***Tahir RZAYEV,***
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri:*

- Azərbaycanın Silahlı Qüvvələri bu il öz bayramlarını böyük qürur və fərəh hissi ilə qeyd edirlər. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, düşünülmüş hərbi - siyasi gedişləri, xalqımızın birliyi və həmrəyliyi sayəsində düşmən üzərində möhtəşəm, tarixi qələbə qazanan Silahlı Qüvvələrimizin əsgər və zabitləri bu gün başlarını dik tuturlar, işğaldan azad etdikləri torpaqlarımıza baxıb qürurlanırlar.

Onların hər birinin sevinməyə, söz deməyə, öyünməyə haqqı var. Çünki Silahlı Qüvvələrimiz bizə möcüzə kimi görünən, əlçatmaz hesab olunan məsələləri igid əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı hesabına həqiqətə çevirdi. Gizli qapılar açıldı, erməni mifi dağıdıldı, təcavüzkarlar tərəfindən axıdılan qanların qisası yerdə qalmadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu tarixi qələbəyə, ordumuzun, əsgər və zabitlərimizin cəsarətinə, əzminə, vətənpərvərliyinə, xalqımızın birliyinə və qəhrəmanlığına böyük dəyər verdi və qürurla bütün dünyaya bəyan etdi: “Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti bahasına, dövlətimizin siyasəti bahasına qazanmışıq”.

Əlbəttə, bu dünyaya məlum olan bir həqiqətdir. Uzun illər Azərbaycan dövləti, ölkə rəhbəri, xalqımız təcavüzkarların əməllərinə, torpaqlarımızın işğal altında qalmasına dözdü, ümidini beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına, böyük dövlətlərin vədlərinə bağladı. Danışıqlara, sülhə dəyər verdi, təşəbbüslərə, çağırışlara inandı. Bununla yanaşı, müharibənin qaçılmaz olduğunu anladı. Ölkə iqtisadiyyatı inkişaf etdirildi, ordu quruculuğu möhkəmləndirildi, əsgər və zabitlərin peşəkarlığı artırıldı, müasir silahlar alındı və onlardan mükəmməl istifadə olunmasının üsulları öyrənildi. Güclü və qüdrətli bir ordu yaradıldı, silahlı qüvvələrin təchizatına, modernləşdirilməsinə, hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə böyük qayğı və diqqət göstərildi.

44 günlük müharibə və düşmən üzərində heç vaxt unudulmayacaq, hər birimiz üçün əziz olan, qürurumuza, yenilməyən inamımıza çevrilən tarixi qələbə dövlətimizin rəhbərinin siyasətini, qətiyyətini nümayiş etdirməklə, həm də çətin gündə xalqımızın birliyini, əyilməzliyini ortaya qoydu, ordumuzun Azərbaycanın hərb tarixinə şanlı səhifə yazmaq bacarığına malik olduğunu sübuta yetirdi. Qısa bir müddətdə igid oğullarımızın şücaəti nəticəsində düşmən əzildi, demək olar ki, məhv edildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan, şanlı ordumuz , müzəffər xalqımız Silahlı Qüvvələr gününü qalib kimi qeyd etdiyi bu günlərdə qürur hissi keçirməklə bərabər, həm də sülhün, əmin-amanlığın təmin olunması üçün dünyaya çağırışlar edir, millətləri, xalqları həmrəyliyə səsləyir.

Erməni təcavüzkarlarının uzun illər xalqımıza, torpaqlarımıza təcavüz etməsinə, insanların başına min bir müsibətlər gətirməsinə, kütləvi qırğınlar, soyqırımları, təxribatlar törətmələrinə baxmayaraq, dövlətimiz müharibənin tərəfdarı deyildir. Azərbaycan dövlətinin Ermənistanın ağır çıxılmaz vəziyyətindən istifadə edib onun torpaqlarını zəbt etməyə, kütləvi tələfatlar törətməyə imkanı və gücü olduğu halda ölkəmizin rəhbəri müharibəni dayandırmağı lazım bildi və Ermənistana mövcud vəziyyəti, reallıqları qiymətləndirməyə, nəticə çıxarmağa imkan verdi.

Azərbaycan Prezidenti dəfələrlə xatırlatmışdır ki, “Bizim heç kimin torpağında gözümüz yoxdur. Biz tarixi ədaləti bərpa edirik. Azərbaycan əsgəri və zabiti torpaqlarımızın azad olunması uğrunda döyüşür”.

Azərbaycanın Silahlı Qüvvələri sülhün və əmin-amanlığın keşiyindədir. İnsanlarımızın, sərhədlərimizin təhlükəsizliyi naminə sayıqdır, mətanətlidir. O, hər hansı bir təcavüzün qarşısını qətiyyətlə almağa və maneələri dəf etməyə qadirdir. Şəhidlərimizin ruhunu sevindirməyə, qisasını almağa nail olan, çətin döyüşlərdə misilsiz hünər göstərən, öz qəhrəmanlıq nümunələri ilə dünyanı heyran qoyan və hərb tariximizə qızıl səhifələr yazan Silahlı Qüvvələrimizlə hər birimiz fəxr edirik.

Bayram münasibətilə mübariz əsgər və zabitlərimizi təbrik edir, xalqımızın təhlükəsizliyi naminə onlara daim qələbə sevincləri arzulayırıq.

## Ordumuz qürurumuzdur

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Azərbaycan xalqı özünün müasir dövlətçilik tarixinin qürurverici dövrünü yaşayır. Ötən il Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası bu tarixin ən böyük hadisəsi oldu. Elə buna görədir ki, dövlətçiliyimizlə bağlı olan əlamətdar günləri də indi daha qürurla, ürəkdolusu ilə qarşılayırıq.

Bu gün isə Vətən müharibəsində Qələbəni bizə yaşadan Azərbaycan Silahlı Qüvvələrinin, ordumuzun günüdür. 23 ildir ki, iyunun 26-sı - Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilir. Bu günün bayram kimi tarixiləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Bu fərman tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm sənəddir.

Tarixi varisliyə önəmin nəticəsi kimi Silahlı Qüvvələr Gününü elan edən Ulu Öndər Heydər Əliyev həm də ordumuzun qurucusudur. Vahid komandanlığa əsaslanan Azərbaycan Ordusunun yaradılması həm də Heydər Əliyevin dövlət quruculuğunun ən şərəfli səhifələrindən biridir. Təəssüflə qeyd etməliyik ki, müstəqilliyimizin ilk illərində ordu yaradılması üçün qətiyyətli addımlar atılmadı. Silahlı dəstələrin ayrı-ayrı şəxslərə tabe olması isə sonrakı dövrdə başıpozuqluğun yaranmasına və torpaqlarımızın müdafiəsiz qalmasına gətirib çıxardı. Ulu Öndər Heydər Əliyevin xalqımızın tələbi ilə hakimiyyətə gəlişi zamanı faktiki olaraq ordu yox idi. Ona görə Ulu Öndər bütün işlərə sıfırdan başlamalı oldu. Amma müdrik siyasətçi Heydər Əliyev həm də qüdrətli sərkərdə idi və çətin şəraitdə, qısa müddətdə yaratdığı ordu Ermənistanın artan təcavüzünün qarşısını ala bildi, Füzili rayonunun 22 yaşayış məntəqəsini işğaldan azad etdi.

Ulu Öndər, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin yaratdığı, möhtərəm Prezident İlham Əliyevin gücləndirərək döyüş qabiliyyətinə görə dünyanın ən qüdrətliləri sırasına çıxardığı ordumuz bu gün hər birimizin fəxr yerimizdir. Söz anlamayan, diplomatik həll prosesində özünü adekvat aparmayan, təcavüz siyasətindən əl çəkmək istəməyən işğalçı Ermənistanı məhz rəşadətli ordumuz cəzalandırdı, hərb meydanında ona tarixi boyu unuda bilməyəcəyi dərs verdi. Ötən ilə qədər Silahlı Qüvvələr Günündə ordumuzla bağlı fikir bildirərkən qeyd edirdik ki, Ermənistanla aparılan sülh danışıqları baş tutmayacağı təqdirdə Azərbaycan Ordusu öz sözünü deyəcək. Vətən müharibəsindən əvvəl isə çıxışlarının birində Prezident İlham Əliyev demişdi: “Bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək”.

Beləliklə, Ermənistan sözdən anlamadığı üçün 44 günlük Vətən müharibəsində söz Azərbaycan Ordusuna verildi. Sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibənin hər günü ordumuzun irəliləməsi, torpaqlarımızın işğaldan azad edilməsi, düşmən üzərində qazanılan qələbə ilə yadda qaldı. Ordumuzun hər bir uğurlu əməliyyatı onun gücünün təntənəsi, zabitlərimizin, gizirlərimizin, əsgərlərimizin vətənpərvərlik salnaməsi oldu. Vətən müharibəsi dövründə Azərbaycan hərbçisinin rəşadətinin, qarşısına qoyulan bütün döyüş tapşırıqlarını şərəflə, dəqiqliklə yerinə yetirdiyinin şahidi olduq. Azərbaycan Ordusu cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə 44 gündə bütün dünyaya müasir döyüş əməliyyatlarını, yeni əsrin müharibəsini aparmağın nümunəsini göstərdi.

Bu böyük Qələbə həm də bütün resursları vahid amal uğrunda səfərbər etməyi bacarmağın nəticəsi idi.

Qədim yurdumuz Şuşanın işğaldan azad edilməsi isə ordumuzun yazdığı şanlı qəhrəmanlıq dastanına çevrildi.

Bu gün Ulu Öndərin ruhu şaddır. Çünki onun qurduğu ordu öz tarixi missiyasını layiqincə və şərəflə yerinə yetirdi. Şəhidlərimizin ruhu rahatdır, çünki uğrunda mübarizə apardıqları torpaqlarımız azad olunub. Dəmir yumruq isə yerindədir. İlham Əliyevin dediyi kimi: “Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”.

## Xalqımıza Zəfər yaşadan ordumuzla fəxr edirik

***Aqil MƏMMƏDOV,***
*Milli Məclisin deputatı:*

- Dövlətin təməl prinsiplərindən biri ordudur. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu mənada Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün gücü ilə qürurlandığımız Azərbaycan Silahlı Qüvvələridir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu strategiya 2003-cü ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. İnkişaf edən iqtisadiyyata mütənasib güclü ordu formulu bu dövrdə Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən biri kimi diqqəti cəlb edib. Azərbaycanın ildən-ilə artan maliyyə imkanları iqtisadi inkişaf tempi Silahlı Qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb.

Vətən müharibəsində qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı. Zaman göstərdi ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı ordu quruculuğu sağlam təməllərə əsaslanıb. İkinci Qarabağ müharibəsi isə təsdiq etdi ki, cənab İlham Əliyev 2003-cü ildən sonra müdrikcəsinə və uzaqgörənliklə ordumuzun döyüş imkanlarını ən yüksək səviyyəyə çatdırıb.

Bu gün Vətən müharibəsində Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə düşmənin başını əzən Silahlı Qüvvələrimizin Günüdür. Xalqımıza Zəfər yaşadan Silahlı Qüvvələrimizlə qürur duyuruq və ordumuzun şəxsi heyətinə öz vəzifələrinin yerinə yetirilməsində uğurlar arzu edirik.

***“Azərbaycan”***